sahibkarlıq xarakteri daşıyan şəxslər belə, həyata keçirdiyi fəaliyyətin əslində sosial sahibkarlıq fəaliyyəti olduğunun bilmirlər. Sosial sahibkarlarla apardığımız müzakirələrdə iştirak edən sosial sahibkarların bir çoxu bunu etiraf edib. Sosial sahibkarlıq sektoru hələ zəif inkişaf etdiyindən sosial sahibkarların assosiasiyalaşması prosesi də hələ başlamayıb. Halbuki sosial sahibkarların assosiasiyalarda birləşməsi onların imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər. Hesab edirik ki, sosial sahibkarlığın inkişafı bu prosesi qaçılmaz edəcək. Bütün mövcud problemlərə baxmayaraq, Azərbaycanda mahiyyət etibarı ilə sosial sahibkarlıq xarakteri daşıyan təşəbbüslər var və onlar artmaqdadır. Ümid edirik ki, zəruri hüquqi və institusional islahatlar nəticəsində təqdim edəcəyimiz nümunələrin sayı çoxalacaq və onlar Ölkəmizin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfələr verəcək.

Ədəbiyyat:

1. The impact of social entrepreneurship on economic growth. Financier Worldwide Magazin. May 2020.

2. Yunus M. Creating a World without Poverty. New York: Public Affairs, 2007.

## UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

*Nəcəfova Günel Alim*
*Mingəçevir Dövlət Universiteti*

Bütün peşələr gözəldir. Amma, bütün peşələri və peşə sahiblərini yetişdirən bir peşə vardır ki, onsuz heç bir sənət, peşə öyrənilmir. Bu peşə müəllimlik peşəsidir.

Müəllimlik peşəsi haqqında görkəmli şəxsiyyətlərin fikirləri vardır. Mehriban davranışı, öyrənənlərinə olan münasibətilə daima sayılıb-seçilən olmalıdır- müəllim.

Öyrədənlə öyrənənlər arasındakı münasibət pedaqogika elminin əsas məsələlərindən biridir. Təlim-tərbiyə işinin lazımi səviyyədə təşkili ,problemin həlli yollarının öyrənilməsindən asılıdır.

Öyrədən öyrənənləri həm tərbiyə, həm də təlim zamanı yaxşı tanımalı, onların bir şəxsiyyət kimi formalaşması işini dövrün tələbləri səviyyəsində qurmalıdır. Əbəs yerə deməyiblər ki, öyrədən şəxsiyyətin mənəvi dünyasının qurucusudur. Öyrənən isə öyrədənin aynasıdır. Bu da bir həqiqətdir ki, hər bir öyrədən və tərbiyə edən öyrənənlərini xalqını, millətini, vətənini sevən, bacarıqlı şəxsiyyət kimi görmək istəyir. Bu istəyin gerçəkləşməsi üçün öyrədənlərin üzərinə böyük bir məsuliyyət düşür. Bunun üçün səy göstərmək lazımdır. Vətəni, dövləti sevən, onu düşmənlərdən qorumağı bacaran şəxslər yetişdirmək böyük müəllim ordusunun üzərinə düşür. Bu baxımdan öyrədən öyrənənlərinə qarşı mehriban olmalıdır. [4,s.249]

Öyrədən-öyrənən arasındakı münasibətlərdə yalnışlığa yol verilsə, öyrənənlərinə qarşı obyektiv olmazsa, qiymət verərkən ədalətli olmazsa, o heç bir

zaman qarşısına qoyduğu təlim-tərbiyə məqsədinə nail ola bilməz. Öyrənənlərinin istər davranışlarında, istərsə də təlim müvəffəqiyyətində gerilik müşahidə olunacaq.

Təhsilin humanistləşdirilməsi prinsipindən baxsaq öyrənənə dərs saatında da, tənəffüsdə də doğru yöndən yanaşmaq onları doğru anlamaq öyrədənə şərait yaradır ki, təlim materialını onlara yaxşı mənimsədə bilsin. Eyni zamanda öyrənənlərə əxlaqi dəyərlərimizi yüksək səviyyədə aşılasın. [1,s.150] Öyrənənlərin şəxsiyyətinə, ləyaqətinə sayğı ilə yanaşılmalı, maraq və istəklərinə önəm verilməlidir. Onların dövlətimiz üçün, ata-anaları üçün nə qədər qiymətli olduqlarını hiss etdirmək, öyrənənlərin şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Öyrədən və öyrənən arasındakı münasibətlərin pisləşməsi öyrədənin qiymətləndirmə apararkən kiçik bir səhvə yol verməsindən irəli gəlir. Öyrənənlərin biliyini qiymətləndirərkən adil olmalı, tələblər və qaydalara riayət edilməlidir.

Müəllimin öyrənənlərin biliyinə verdiyi qiymət dəqiq olmalıdır. Şagirdin biliyinə verilən qiymət biliyin qiymətləndirilməsinə qoyulan tələblərə cavab verlidir. Bunun üçün öyrədən həmin qaydalara əməl etməlidir.

1. Öyrənənin aldığı qiyməti müəllim bir neçə kəlimə ilə anlatmalıdır. O, bilməlidir ki, niyə və nəyə görə bu qiyməti alıb. Belə olan halda öyrənənin dərsə, fənnə və öyrənməyə marağı artır. Aşağı qiymət aldıqda şagird fəndən nəyi zəif, nəyi daha  yaxşı bildiyini, harada səhfə yol verdiyini öyrənir və çalışır ki, həmin səhfləri bir daha təkrarlamasın, aradan qaldırsın. Qiymətləndirmənin bu cür öyrənənlərin gözü qarşısında və onların iştirakı ilə verilməsi şagirdlərdə müəllimə inam hissini artırır. Yoldaşının harada, necə və nəyi yanlış bildiyini öyrənir və özləri həmin nöqsanlar yol verməməyə çalışırlar.

2. Öyrənənlərin təlim fəaliyyətinə verilən qiymət ədalətli olmalıdır. Belə ki, verilən qiymət onun bilik, bacarıq və vərdişlərindəki durumu necə var elə əks etdirdikdə pedaqoji kollektivin üzvləri də şagirdin biliyinin hansı dərəcədə olmasından doru nəticə çıxarır və bu sahədə lazımi tədbirlər həyata keçirə bilirlər. Şagirdin aldığı qiymət saxtalaşdırıldıqda öyrənən təkcə özünü deyil, uşağı valideynlərini, yoldaşlarını da aldatmış olur. Hər kəsdə şagirdin biliyinin normal olduğu fikri formalaşır və ya əksinə, verilən qiymət heç bir əsası olmadan aşağı salınarsa öyrənənin oxumağa, fənnə qarşı, müəllimə qarşı sevgisi azalır. Belə xoşagəlməz hal təlim-tərbiyənin keyfiyyətinin yüksəlməsinə də mənfi təsir edir. Öyrənənin davranış normalarına riayət edib-etməməsi onun biliyinə verilən qiymətə təsir etməməlidir. Onun üçün, yəni davranışın qiymətləndirilməsinin öz normaları var. Şagirdin sinifdə, kollektivdə münasibətlərindəki çatışmamazlıqlar onun fənlərdən aldığı qiymətə təsir göstərməlidir. Əks halda öyrədən kobud şəkildə səhvə yol vermiş olar. Qiyməti, müəllim cəza üsüluna çevirməməlidir. Şagirdin biliyinə qiymət verərkən onun nəyi necə dediyinə, tapşırığı necə yerinə yetirdiyinə deyil, həm də nə dediyinə, nəyi icra etdiyinə də müəllim fikir verməlidir. Şagird fikrini izah edərkən, ardıcıllığı, elmiliyi, sistemliliyi, sözlərin düzgün tələffüzünü gözləməlidir. Öyrədənin şagirddən bu cür tələbi digər şagirdlərin də həmin qaydalara əməl etmələrinə səbəb olur. Bu zaman uşaqlar təlim işinə daha məsuliyyətlə yanaşırlar. Dediklərimizin əksi olaraq, verilən təlimi tapşırıqların yerinə yetirilmə metoduna, üslubuna müəllim diqqət etməzsə, şagirdlərdə məsuliyyətsizlik, başdan etmə halları formalaşır.

Şagirdlərdə müsbət əxlaqi keyfiyyətləri formalaşdırmaq üçün onların biliyinə verilən qiymət doğru, halal və düzgün olmalıdır.

Öyrənənlərin biliyi qiymətləndirilərkən onun dərs vaxtı təlim fəaliyyəti də göz önündə olmalıdır. Şagirdin biliyinin qiymətləndirilməsini hər müəllim dərsin (45 dəqiqəsinin) müəyyən vaxtında həyata keçirir. Belə ki, bəziləri ev tapşırığının yerinə yetirilib yetirilməməsinə və necə yerinə yetirlməsinə qiymət verir. Bəzisi, şagirdin həm dərs zamanı fəaliyyətini nəzərə alır, həm də evə verilən tapşırığın icra olunması durumunu. Bəziləri isə dərs boyu şagirdin fəallığını nəzərə alaraq sonda qiymətləndirmə aparırlar. Dərsin sonunda qiymətləndirmə aparan müəllimlərin sinifdəki təlim göstəriciləri keyfiyyətcə yüksək olur. Burdan belə bir sual ortaya çıxa bilər. Nəyə görə? Niyə? Ona görə ki, dərsin başlanğıcında qiymət alan uşaq, dərsin sonuna kimi fəallıq göstərməyə bilir. Onda "dərsdən qiymət almışam" deyə bir düşüncə formalaşır. Təəsüflər olsun ki, bu cür düşüncə tərzi həm yaxşı qiymət almış uşaqlarda, həm də pis qiymət almış uşaqlarda olur. Bu cür psixoloji hallar fərdi xarakter daşıyır. Qiymət alan şagidlərdə bu cür hal, düşüncə yaranmaya da bilər.Öyrənənlərin biliyini dərsin sonunda qiymətləndirən müəllimlər onlarda bu cür mənfi halların baş qaldırmasının qarşısını alır. Öyrənənlər dərs boyu fəallıq göstərir. Sual-cavablarda iştirak edir və diqqətlərini müəllimə və dərsə yönəltməyi bacarırlar. Bu da fənnin mənimsənilməsinə, təlimin keyfiyyətinin yüksəlməsinə səbəb olur. Bu cür qiymətləndirmə aparan müəllimlər təlimdə yüksək nəticələr qazanırlar. [4,s.343]

Hər bir fənn üzrə müəyyən olunmuş vaxtlarda yoxlamalar aparılır. Bu cür yoxlamaların məqsədi şagirdlərin fənni necə qavrayıb-qavramadıqlarını öyrənməkdən ibarətdir. Yoxlamaların nəticələri fənn birləşmələrində məktəbin pedaqoji şurasında, valideyn iclaslarında müzakirə olunur. Qazanılan uğur, səbəb olan amillər və ya uğursuzluq - onu yaradan amillər müzakirə olunur. Bu zaman məsələyə obyektiv yanaşılmalıdır. Bu işdə məktəb direktoru, müəllimlər və uşağın ata-anasının üzərinə məsuliyyət düşür. Öyrənənlərin bilikləri qiymətləndirilərkən onların təlim bacarıqları ilə yanaşı təlimi idrakları da nəzərə alınmalıdır. Təəsüflər olsun ki, öyrədənlərin çoxu şagirdin biliyini qiymənləndirərkən təkcə onun fənnə dair biliyinə diqqət edir, bu biliyin "Mənimsəmə" prosesinin mərhələləri olan (motivasiya, anlama, qavrama, möhkəmləndirmə, tətbiqetmə) idrakı fəaliyyət kənarda qalır. Niyə? Buna səbəb olan nədir? Kimi suallara belə cavab verə bilərik. Hal-hazırda orta məktəblərin ibtidai siniflərində çalışan əksəriyyət sinif müəllimləri təhsil alarkən bilik, bacarıq və vərdişlərin mənimsənilməsində idrakı bacarıqların olduğunu unudurlar. Halbuki, öyrənmə zamanı idrakı bacarıqların diqqətə alınması vacibdir. Əgər öyrənəndə öyrənməyə maraq, həvəs yoxdursa, fənnə dair məlumatları, müəllimdən, kitabdan və s. mənbələrdən almırsa, onları idrakın süzgəncindən keçirmirsə, gəldiyi nəticələri özününküləşdirib tətbiq edə bilmirsə, bu zaman öyrənmə baş verməyəcək. Sadəcə, əzbərləmə, müvəqqəti öyrənmə həyata keçirilmiş olacaqdır.Ölkəmizdə təhsilin vəziyyətini müəyyən etməkdə, təhsildə yüksək nəticələr əldə etməkdə, öyrənənlərin təlim nəticələrinə və onların düzgün qiymətləndirilməsi işinə dövlət nəzarətinin və marağının olmasını unutmamalıyıq.Qiymətləndirmənin dövlətimiz üçün də böyük əhəmiyyəti vardır. Verilən qiymət uşağın psixologiyasına bu və ya digər formada güclü təsir göstərir.Öyrənənlərin biliyinin qiymətləndirilməsində əsas məqsəd onları

öyrənməyə, inkişaf etməyə ruhlandırmaqdır. Öyrədən aldığı qiymətdən narazı qalan uşağa onun nə üçün belə qiymət aldığını izah etməli, onu inandırmalıdır. Öyrədən yuxarıda sadaladığımız məqamlara diqqət etməzsə, bu zaman öyrənənlə aralarında anlaşılmazlıq yarana bilər. Bu anlaşılmazlığı da aradan qaldırmaq yenə də öyrədənin üzərinə düşür. Mehriban, səmimi ortam yaratmalıdır. Öyrənənin nöqsanını qabarıq şəkildə gözə soxmaq lazım deyil. Əksinə, onunla təklikdə görüşüb söhbət etmək, mövcud olan nöqsanın haradan qaynaqlandığını müəyyənləşdirmək lazımdır.

Bəzən elə hallar olur ki, dərs saatı qurtarır, yəni öyrədən vaxt bölgüsündən düzgün istifadə edə bilmir. Öyrənənin cavabını sonuna qədər izləyə bilmir, onun cavabını aşağı qiymətləndirir. Bu da iki tərəf arasında narazılığın yaranmasına səbəb olur. Öyrənən dərslərindən zəifləməyə başlayır. Öyrənməyə, oxumağa həvəsi, marağı qalmır. Belə olan halda öyrədən nə etməlidir? Onun qəlbinə yol tapmalıdır. Şagirdin yenidən təlimə marağını bərpa etməlidir. Belinskinin təbirincə desək, bu günün kiçik fidanları sabahın qurucularıdırlar. Onlara ehtiyatla yanaşmalıyıq. Öyrədən seçdiyi peşəni- müəllimlik peşəsini sevməlidir. Əks halda, o insanla işləyə bilməz.

Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə başçılıq etdiyi dövrdə təhsildə inkişaf, yenilənmə həyata keçirildi. Belə ki, təhsilin humanistləşdirilməsi prinsipindən tutmuş hər şey yeniləndi, yeni məna kəsb etdi. Öyrədənlərin öyrənənlərə hörmətlə yanaşması, onlara bir şəxsiyyət kimi davranması onlardan yüksək pedaqoji qabiliyyət tələb edir. Pedaqoji qabiliyyəti yüksək olan öyrədənlər öyrənənlərinə təlim müvəffəqiyyətinin göstəricilərinə görə deyil, onlara humanist yanaşma sərgiləyərək təlim keyfiyyətinin artmasına nail olurla. Gənc öyrədənlər belə təcrübəli pedaqoqların iş təcrübəsini örnək almalıdırlar. İşinin ustası olan öyrədənlər hər vaxt öyrənənlərinə qarşı olan səmimiyyəti qoruyub saxlamalı, onların qəlbinə toxunacaq söz deməməlidirlər. Öyrənənləri bir vətəndaş kimi görməli, suallarına düzgün, səbrlə cavab verməlidirlər. Bir sözlə, öyrədən-öyrənən arasında yaranan anlaşılmazlıqlar yerindəcə həll olunmalıdır. Bunun üçün öyrədən təcrübəli, savadlı olmalıdır. Öyrənənlərinə sevgisini, qayğısını göstərməklə yanaşı onlardan tələb etməyi də bacarmalıdır. Səhvlərini düzəltmək üçün səy göstərmirsə istədiyi nəticəni əldə edə bilməyəcəkdir. Öyrədən bu işdə ardıcıllığı gözləməlidir.Bilirik ki, öyrənən olmasa təlim olmaz. Bu mümkün deyil. Müasir dövrdə iki tərəf (öyrədən və öyrənən) arasındakı münasibətlər dəyişir. Elm, texnika inkişaf etdikcə uşaqların dünyaya baxışı da dəyişir, yenilənir. Hazırki təlimdə öyrənənlər təlimin aparıcı simalarıdırlar. Müstəqil olaraq araşdırır, fikir bildirirlər. Suallar qoyur, cavablar axtarırlar. Bu isə onların idrakını (elmi) formalaşdırır. Müstəqil surətdə əldə edilən bilik-əsil bilikdir, yaddan çıxmır, unudulmur. Öyrədənlə öyrənən arasındakı münasibətlərin yaxşı olması üçün ilk növbədə öyrədən onlara şəxsiyyət kimi yanaşmalı, onların biliyinin qiymətləndirilməsində adil olmalıdır. Bu zaman hər iki tərəf qarşısına qoyduğu məqsədə çatmış olur.

Ədəbiyyat:

1. Axundov S. Ailədə uşaqların əxlaq tərbiyəsi Bakı:Azərnəşr, 1991, 220s.
2. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015, 424 s.

3. Əlizadə Ə.Ə. Abbasov A.N. Ailə həyatının etikası və psixologiyası. müəllim üçün vəsait, Bakı: 1988, 432s.
4. Şahbazova Q.T. Kiçikyaşlı məktəblərin ailə nümunəsində tərbiyə edilməsi. Bakı: ADPU, 2006.74s.

## İQTİSADİYYATIN İNKİŞAFINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

*Verdiyeva Ülviyyə Məhəmmədəli qızı, müəllimi*
*Mingəçevir Dövlət Universiteti*

Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşdırılması bilavasitə sahibkarlığın inkişafı ilə əlaqədardır. Sahibkarlıq fəaliyyətinin nəzəri əsasları hələ XVIII əsrdə qoyulmuş və sonrakı dövrlərdə onun mahiyyəti və məzmunu haqqında nisbətən fərqli, lakin bir-birini tamamlayan fikirlər formalaşmışdır. Sahibkarlıq anlayışını ilk dəfə iqtisadiyyatda işlətmiş Riçard Kantilyonun fikrincə, sahibkarlıq xüsusi növ iqtisadi funksiya olub, müxtəlif növ əmtəələr bazarında tələblə təklif arasında uyğunluq yaratmağa xidmət edir. Kantiluyon istehsal olunan məhsulların alqı-satqısı ilə məşğul olan şəxsləri sahibkar adlandırır. O, məhsul istehsalçılarını sahibkar qrupuna daxil etməmişdir. A.Smit özünün iqtisadi nəzəriyyəsində sahibkarlıq nəzəriyyəsinə toxunaraq qeyd edir ki, sahibkar öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üzərində müstəqil sərəncam verən, mənfəət əldə etmək məqsədilə kommersiya xarakterli hər hansı ideyanı reallaşdırmaq üçün risk edən mülkiyyətçidir.

Məşhur Amerika iqtisadçısı İozef Şumpeter "İqtisadi inkişafın nəzəriyyəsi" adlı kitabında sahibkarlıq fəaliyyətini kapitalist iqtisadiyyatında iqtisadi atrımın təmin edilməsinin başlıca hərəkətverici qüvvəsi hesab etmişdir. Onun fikrincə, sahinkarlıq – istehsalatda yeni texnologiya əldə edən novatordur. Bu problemə ingilis iqtisadçısı, 1974-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış F.Xayek yenidən qayıtmış və onun fikrincə, sahibkarlığın mahiyyəti heç də bu qeyd edilənlərlə məhdudlaşmır. O, sahibkarlığı heç də bu və ya digər fəaliyyət növü kimi deyil, əksinə, iqtisadi imkanların axtarılması və öyrənilməsi kimi xarakterizə edirdi. Bunlarla yanaşı digər iqtisadçılar "Sahibkarlıq fəaliyyəti" və "Sahibkar" məvhumunu müxtəlif aspektlərdən şərh etmişdir. Belə ki, Bodonun fikrincə sahibkar müəssisədə istehsalı təşkil edən, onu planlaşdıran və bunun üçün məsuliyyət daşıyan şəxsdir; Frensis Uoker sahibkar dedikdə öz təşkilatçılıq qabiliyyəti ilə mənfəət və faiz əldə edən şəxs nəzərdə tuturdu; Devid Maklelland sahibkarı hər bir risk şəraitində fəaliyyət göstərən enerjili insan hesab edirdi; Piter Druker sahibkarı maksimum mənfəəft əldə etmək üçün bütün imkanlardan istifadə edən insan kimi xarakterizə edirdi; Albert Şapiroya görə sahibkar sosial-iqtisadi mexanizmin təşkilatçısı və təşəbbüskarı olub baş verə biləcək uğursuzluğa görə də tam məsuliyyət daşıyan insandır; C.Keyns isə sahibkarları təsərrüfatçılığın yeni sosial-psixoloji tipi adlandırmışdır. Lakin həmin fikirlər tarixin sonrakı dövrlərində dəyişmiş və daha da təkmilləşmişdir. Bu baxımdan "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda sahibkarlıq fəaliyyətinə